# GDU-da 20 Yanvar faciəsinin ildönümünə həsr edilmiş tədbir keçirilib



**Gəncə Dövlət Universitetində (GDU) 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar tədbir keçirilmişdir. Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra 20 Yanvar hadisələri ilə bağlı videoçarx nümayiş olunmuşdur.**

Tədbirdə universitetin prorektoru Gülsüm Fətəliyeva çıxış edərək 1990-cı ildə keçmiş SSRİ rəhbərliyinin göstərişi ilə sovet hərbi birləşmələrinin xalqımızın iradəsini sındırmaq üçün törətdiyi qanlı terrordan danışmışdır. Bildirmişdir ki, 35 il əvvəl 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Mixail Qorbaçovun əmri ilə Bakıya və Azərbaycanın bir neçə rayonuna sovet ordu birləşmələri yeridilmiş, dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi şəkildə qətlə yetirilmişdir. Xalqımız böyük faciə ilə üzləşsə də, Vətənə, torpağa sədaqətini, qəhrəmanlığını, müstəqillik uğrunda mübarizliyini bütün dünyaya nümayiş etdirmişdir.

Sonra universitetin elm və innovasiyalar üzrə prorektoru, Milli Məclisin deputatı Pərvin Kərimzadə çıxış etmişdir. Demişdir ki, Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq mərhələsi kimi yazılan 20 Yanvar faciəsi vətənpərvərliyin zəfər salnaməsidir: "O ağır günlərdə Ümummilli Lider Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, 1990-cı il yanvarın 21-də siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlmiş və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək bəyanatla çıxış etmişdir. Azərbaycan rəhbərliyinə qayıdışdan sonra 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar faciəsinə ali qanunvericilik orqanı - Milli Məclis səviyyəsində ilk dəfə hüquqi-siyasi qiymət verilmişdir".

Tədbirdə universitetin Rus dili kafedrasının dosenti Sevda Əliyevanın "20 Yanvar - Yaddaşlara həkk olunan gün", Ümumi tarix kafedrasının baş müəllimi Bəxtiyar Məhərrəmovun "20 Yanvar faciəsi unudulmaz bir tarixdir", Azərbaycan və dünya ədəbiyyatı kafedrasının müəllimi Vüsal İsgəndərovun "Tarixin qan yaddaşı", Azərbaycan dili kafedrasının müəllimi Ayşən Nəbiyevanın "Qar üstünə qan yağırdı", Filologiya fakültəsinin 4-cü kurs tələbəsi Nigar Məmmədovanın "20 Yanvar milli qürur günümüz" adlı məruzələri dinlənilmişdir.

Çıxışlardan sonra tələbələr 20 Yanvar şəhidlərinə həsr edilmiş şeirlər səsləndirmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 19 yanvar (№ 12).- S.14.